# Qarabağ və Şərqi Zəngəzur: Zəfər strategiyası



## 2024-cü il Prezident İlham Əliyevin liderliyi ilə hərtərəfli tərəqqi və uğur ili kimi tarixə yazılıb

### Tarixin anları

Xalqımızın həyatında xeyirli və uğurlu il kimi yaddaqalan və ölkəmizdə bir sıra mühüm tədbirlərin keçirildiyi 2024-cü il tarixə qovuşur. Uzun illər ərzində Ermənistanın hərbi təcavüzündən və işğalından əziyyət çəkən, yurd həsrəti ilə qovrulan keçmiş məcburi köçkünlərin taleyində böyük bir dönüş baş verdi. Buna qədər isə onlara ən böyük təsəllini və ümidi verən Azərbaycan Prezidenti İlham Əliyev bütün görüşlərində, beynəlxalq tribunalarda, dövlətlərarası tədbirlərdə qətiyyətlə, inamla bildirirdi ki, xalqımız heç zaman işğalla barışmayacaq, torpaqlarının azad edilməsi üçün mübarizə aparacaqdır. Dörd il bundan əvvəl müzəffər ordumuzun bölmələri Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad etdi və keçmiş məcburi köçkünlərə bir dünya sevinc bəxş edildi. Torpaqlarımızın işğaldan azad edilməsindən dərhal sonra düşmənin basdırdığı minaların təmizlənilməsinə başlanıldı və ardınca ermənilərin dağıtdığı, viran qoyduğu həyat əhəmiyyətli infrastrukturun yaradılması üçün layihələr icra olundu. Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə hər iki bölgədə nəhəng layihələrin icrasına başlanılıb, Qarabağ və Şərqi Zəngəzurda ilk əvvəl həyat əhəmiyyətli infrastruktur yaradılır. Bölgənin enerji təsərrüfatı yenidən qurulur, hava limanları inşa olunur, yeni yollar çəkilir, yaşayış məntəqələri tikilir, keçmiş məcburi köçkünlərin həmin ərazilərdə etibarlı və layiqli məskunlaşması üçün hər cür şərait yaradılır. Bu möhtəşəm quruculuq işləri bütün sahələri əhatə edir.

Qələbədən heç üç il keçməmiş Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdış başlanıb, yüzlərlə ailə doğma yurdlarına qovuşur. Həmin ərazilərə qayıdan keçmiş məcburi köçkünlərin su ehtiyatlarından istər içməli, istərsə də kənd təsərrüfatı təyinatı üzrə istifadəsi üçün meliorasiya və su təsərrüfatı sahəsinə aid tədbirlərin həyata keçirilməsinə başlanılıb. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət tərəfindən ayrılan vəsait hesabına Tərtər rayonu ərazisində yerləşən su tutumu 5,86 milyon kubmetr olan Suqovuşan, Ağdam rayonu ərazisində yerləşən su tutumu 23 milyon kubmetr olan Xaçınçay, Füzuli rayonu ərazisində yerləşən su tutumu 15,5 milyon kubmetr olan 3 ədəd Köndələnçay su anbarlarının və magistral kanalların təmir-bərpası işləri həyata keçirilib. Eyni zamanda uzunluğu 20,2 kilometr olan Tərtərçay Sol Sahil kanalının yenidən qurulmasına başlanılıb. Şərqi Zəngəzur iqtisadi zonasına daxil olan rayonların ərazisindəki sututarlar və anbarlarda da təmir-bərpa işlərinin aparılması üçün layihə sənədləri hazırlanır. Layihə işləri başa çatandan sonra Laçın rayonu ərazisində yerləşən sututumu 90,8 milyon kubmetr olan Həkəriçay və Qubadlı rayonu ərazisində yerləşən sututumu 67 milyon kubmetr olan Bərgüşadçay su anbarları təmir və bərpa edilir. Bundan başqa, Həkəri çayın sağ və sol sahilində yerləşən əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi məqsədilə Laçın rayonu ərazisində yerləşən sututumu 26,7 milyon kubmetr olan Zabuxçay su anbarının və magistral boru kəmərlərinin tikintisi üzrə layihələndirmə işləri aparılır. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu bölgələrdə formalaşır. Ehtimal edilir ki, Qarabağ və Şərqi Zəngəzurda külək, günəş və hidroenerji stansiyalarının potensialı 10 qiqavatdan çoxdur. Artıq bu mühüm potensialın inkişaf etdirilməsi mərhələsi başlayıb. Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji zonası" elan edilib, təbii ki, bu da qlobal çağırışlara və müasir inkişaf tendensiyalarına uyğun strateji yanaşmanın məhsuludur. Dövlətimizin başçısı İlham Əliyev çıxışlarında dəfələrlə bu ərazilərin enerji təminatında bərpaolunan enerji mənbələrindən maksimum istifadə ediləcəyi, ekoloji təmiz, səmərəli innovativ texnologiyaların tətbiq olunacağı barədə qəti mövqe ifadə edərək deyib ki, azad edilmiş ərazilər "yaşıl enerji zonası" olacaq. İşğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası təmin ediləcək. Bu mühüm iqtisadi tezis Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda öz əksini tapıb. Qarabağ və Şərqi Zəngəzurda iqtisadi fəaliyyətin canlanması, sürətləndirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması əsas vəzifə kimi qarşıya qoyulub. Bu istiqamətdə mühüm dövlət sənədləri təsdiq edilib. Dövlətimizin başçısının "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji zonasının" yaradılması ilə bağlı tədbirlər haqqında" 2021-ci il 3 may tarixli Sərəncama uyğun olaraq Nazirlər Kabineti "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji zonasının" yaradılması üzrə Tədbirlər Planı"nı təsdiq edib. Torpaqlar öz azadlığına qovuşdu. Çox böyük inam və qətiyyətlə işlərə başlanıldı. İnkişaf, həyat və uğur fəlsəfəsini, qələbə dastanını yazan Liderin ilk tapşırığı da məhz yollarla bağlı oldu. Hazırda azad edilən ərazilərdə onlarla yol infrastrukturu qurulur, istifadəyə verilir, körpülər tikilir. Son 4 il müddətində Qarabağ və Şərqi Zəngəzurda 1000 kilometrlərlə yollar çəkilib, 2 beynəlxalq aeroport inşa edilib, minlərlə ev, yüzlərlə məktəb istifadəyə verilib. İşğaldan azad edilən ərazilər minalardan təmizlənir, yaşayış massivləri salınır.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Bu prioritetin uğurla reallaşdırılması üçün iki məqsədə nail olunur: dayanıqlı məskunlaşma, iqtisadi fəaliyyətə reinteqrasiya. Azərbaycanın tarixi ərazi bütövlüyünün bərpası əhalinin öz doğma torpaqlarına qayıdaraq yaşaması üçün yeni mərhələ yaratmışdır. İşğaldan azad olunmuş bölgələrdə əhalinin dayanıqlı məskunlaşması təmin edilir. Həmin ərazilər cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilir, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu həyat yaradılır.

İşğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi və sosial simasında tarixi mövqeyi bərpa edilir, yeni bölgə iqtisadi fəaliyyətin aparıcı həlqələrindən birinə çevrilir.










### Quruculuğun harmoniyası

Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi, sənaye potensialının inkişaf etdirilməsi məqsədilə dövlət başçısının 2021-ci il 28 may tarixli Fərmanı ilə 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Sənaye Parkında 28 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Hazırda Parkda 9 müəssisə fəaliyyət göstərir. Logistik imkanlar baxımından əlverişli ərazidə yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı dövlət başçısının 2021-ci il 4 oktyabr tarixli Fərmanı ilə 200 hektar ərazidə yaradılıb. Sənaye Parkında 13 sahibkarlıq subyektinə rezidentlik, 1 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Parkda 1 müəssisə fəaliyyət göstərir.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı 2024-cü ilin birinci yarısı üzrə monitorinq və qiymətləndirmə prosesi yekunlaşıb. İşğaldan azad edilmiş ərazilərdə infrastrukturun yenidən qurulmasında yüksəkgərginlikli elektrik enerjisi ilə təchizatı üçün 72.2 km 110 kv-luq, 262 km 330 kv-luq uzunluqda elektrik verilişi xətləri çəkilib. Ərazilərdə telekommunikasiya və poçt xidmətləri infrastrukturunun qurulması məqsədilə 2 yaşayış məntəqəsində, inzibati binada poçt xidmətləri yenidən təşkil edilib. 1 ədəd radio-televiziya yayımı stansiyası fəaliyyətə başlayıb. Mobil telekommunikasiya xidmətlərinin təşkili üzrə 11 yeni baza stansiyası quraşdırılıb. Respublika və yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və yenidən qurulması istiqamətində Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun, Ağdam şəhərinin daxili yollarının, Xudafərin-Qubadlı-Laçın, Əhmədbəyli-Füzuli-Şuşa, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Toğanalı-Kəlbəcər-İstisu və Şuşa-Laçın avtomobil yollarının tikintisi davam etdirilib. Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları üçün müvafiq kodlar əldə olunub. Füzuli və Zəngilan Hava limanlarında uçuşların təşkili təmin edilib. Geri qayıdacaq əhali üçün bank, sığorta və maliyyə xidmətlərinə çıxış imkanını genişləndirmək məqsədilə regionda fəaliyyət göstərən bank filiallarının sayı 2-yə çatdırılıb. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə azad edilmiş ərazilərdə banklar və Azərpoçt tərəfindən quraşdırılmış POS-terminalların sayı 611 ədəd təşkil edir. Sahibkarlıq fəaliyyəti üçün əlverişli mexanizmlərin yaradılması istiqamətində regionlarda fəaliyyət göstərən sənaye parklarında 11 müəssisə rezident, 1 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Emal sənayesi və xidmət infrastrukturunun inkişaf etdirilməsi istiqamətində ümumilikdə 170 layihə üzrə rezidentlərin fəaliyyəti təmin edilib. 3 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə güzəştli kredit verilib. Azad edilmiş ərazilərdə fəaliyyət göstərən 12 kənd təsərrüfatı məhsullarının istehsalçısına dövlət büdcəsinin vəsaiti hesabına əkin subsidiyası ödənilib. Azərbaycan xalqı öz tarixində ən böyük zəfərə nail oldu. Belə bir şəraitdə Böyük Qayıdışla bağlı Dövlət Proqramının həyata keçirilməsi, qarşıya qoyulan məqsədlərin uğurla reallaşdırılması dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya kimi iki mühüm prinsiplərə əsaslanaraq həyata keçirilir. Azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərinə 2020-ci ildən bu günə kimi, ümumilikdə 22 milyard manat vəsait sərf olunub. Böyük Qayıdış çərçivəsində bu günədək 2544 ailənin, başqa sözlə, 9857 nəfərin öz doğma yurduna qayıtması təmin olunub.

### Son bir ildə Qarabağ və Şərqi Zəngəzura səfərlərlər

Tarixin və zamanın gərdişini dəyişən, doğma xalqının və Azərbaycanın şərəfini ucaldan, düyünə salınmış və uzun illər sanki tilsimlənmiş problemi öz əsgəri ilə döyüş meydanında həll edən, ərazi bütövlüyümüzü, suverenliyimizi xilas edən Qalib Ali Baş Komandan İlham Əliyevin siyasi, diplomatik məharəti, fədakarlığı, qətiyyəti sayəsində İkinci Qarabağ müharibəsində əldə edilən əzəmətli və şanlı qələbə indiki və gələcək nəsillər üçün əsl qürur mənbəyidir. İşğaldan azad edilmiş ərazilərdə ən müasir texnologiyalarla genişmiqyaslı bərpa və yenidənqurma sürətlə aparılır, qarşıya qoyulan hədəflərə çatmaq üçün böyük bir mücadilə edilir. Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərə 2024-cü ildə ilk səfərini fevralın 26-da Xocalı şəhərinə edib və burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, sonra Xocalı Soyqırımı Memorialının təməlini qoyub, şəhərdə aparılan tikinti işlərinin gedişi ilə tanış olub. Prezident İlham Əliyev və Azərbaycana səfərə gələn Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev martın 12-də Füzuli rayonunda olublar. Füzuli şəhərinin Baş planı ilə tanış olan dövlət başçılarına məlumat verilib ki, 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Azərbaycan və Qazaxıstan prezidentləri Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər. Həmçinin prezidentlərə Füzulidə inşa olunacaq Mərkəzi Rayon Xəstəxanası barədə məlumat verilib. Bildirilib ki, 180 çarpayılıq yeni xəstəxananın inşasında Qazaxıstanın "BI Group" şirkəti də iştirak edəcək. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin yenidən qurulması işinə Özbəkistan və Qazaxıstanla bərabər, Qırğızıstan da fəal şəkildə qoşulub. Belə ki, aprelin 25-də Prezident İlham Əliyev və Prezident Sadır Japarov Ağdamın Xıdırlı kənd tam orta məktəbinin təməlini qoyublar. Bu məktəb Qırğızıstan Prezidentinin təşəbbüsü ilə inşa olunur.

Mayın 10-da - ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günündə də Prezident İlham Əliyev işğaldan azad olunmuş torpaqlarımıza səfər edib. Dövlətimizin başçısı bu səfərdə Füzuli rayonunda Köndələnçay Su Anbarı kompleksinin, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda inşa edilmiş birinci tunelin, Şuşada "Şirin su" hamamının, Mamayı məscidinin açılışlarında iştirak edib, şəhərdə inşa olunacaq üçüncü yaşayış kompleksinin və Turşsu qəsəbəsinin təməlini qoyub. Bu səfəri daha əlamətdar edən hadisə isə Şuşada birinci yaşayış kompleksinin açılışı və şəhərə köçmüş ilk sakinlərlə görüş olub. Görüşdə diqqətə çatdırılıb ki, ilkin mərhələdə birinci yaşayış kompleksinə köç qrafikinə əsasən 20 ailə olmaqla 88 nəfər köçürülüb. İyirmi üç binadan ibarət yaşayış kompleksində 450 mənzil var. Şuşaya ilk köç edən ailələrlə görüşən dövlətimizin başçısı mənzillərin açarlarını sakinlərə təqdim edərək deyib: "Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq - ən müasir, ən rahat, ən gözəl. Buranın təbiəti, gözəl mənzərələri, yaşıllıqlar, bulaqlar müasir və eyni zamanda ənənəvi üslubda inşa edilən binalarla tamamlanır. Elə bir gözəl şəhər yaradılır ki, əminəm, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək". Sonra Azərbaycan Prezidenti İlham Əliyev Laçın rayonunun Sus kəndində görülmüş işlərlə tanış olub, kəndə köçmüş sakinlərlə görüşüb. Sus kəndində 60-a yaxın fərdi ev tikilib, 132 şagird yerlik orta məktəb, 50 yerlik uşaq bağçası da inşa olunub. Dövlətimizin başçısı Laçın rayonunda "Zabux" və "Qarıqışlaq" Kiçik Su Elektrik stansiyalarının açılışlarını edib. Qeyd edək ki, Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq indiyədək Laçın şəhərində 552 ailə məskunlaşıb və 2031 laçınlının yurd həsrəti sona çatıb. Həmçinin Dövlət Proqramına əsasən rayonun Sus kəndinə 59 ailənin (214 sakin), Zabux kəndinə isə 217 ailənin (823 sakin) köçürülməsi təmin olunub.

Mayın 18-də Şərqi Zəngəzura səfər edən Prezident İlham Əliyev Cəbrayıl rayonunun Böyük Mərcanlı, Karxulu, Sarıcallı və Maşanlı kəndlərinin, Zəngilan rayonunun Mincivan qəsəbəsinin təməllərini qoyub, "Zəngilan" və "Şayıflı" Su Elektrik stansiyalarının açılışlarını edib. Qeyd edək ki, 2040-cı ilədək Mincivan qəsəbəsində 9088 nəfər üçün 630 fərdi ev və yaşayış binalarının tikilməsi nəzərdə tutulub. Azərbaycan ilə İranın dövlət sərhədində - Araz çayı üzərində inşa edilən "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları elektrik enerjisi istehsalı və suvarma məqsədilə tikilib. Bu hidroqovşaqlar həm yaşayış məntəqələrinin elektrik enerjisi ilə təmin edilməsində, həm də əkin torpaqlarının suvarılmasında xüsusi rol oynayacaq. On gün sonra dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərimizə yenidən səfər edib, Ağdam rayonunun Tağıbəyli, Güllücə, Nəmirli və Şotlanlı kəndlərinin təməllərini qoyub. Sonra Xocalıda 180 mənzildən ibarət 15 binada yaradılan şəraitlə tanış olub, şəhərə köçən sakinlərlə görüşüb, evlərin açarlarını onlara təqdim edib.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə növbəti səfəri sentyabrın 2-də Kəlbəcər rayonuna olub. Dövlətimizin başçısı Tərtər çayı üzərində yerləşən 22,5 MVt gücündə "Yuxarı Vəng" Su Elektrik Stansiyasının (SES) açılışını edib. İşğaldan azad edilən ərazilərin "yaşıl enerji zonası"na çevrilməsi istiqamətində strategiyaya uyğun olaraq tikilən stansiya Vətən müharibəsində qələbəmizdən sonra regionda yaradılan ən böyük "yaşıl enerji" mənbəyidir. Dövlətimizin başçısı bu səfər çərçivəsində Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin və inzibati binanın, həmçinin İstisu qəsəbəsinin təməllərini qoyub, 524 ailəlik yaşayış kompleksində tikinti işlərinin gedişi ilə tanış olub, "İstisu" mineral su zavodunun, 110/35 kV-luq "İstisu" yarımstansiyasının, 4,3 MVt gücündə "Zar" Kiçik Su Elektrik Stansiyasının (KSES-in) və 4,1 MVt gücündə "Toğanalı" KSES-in açılışlarında iştirak edib və rayon sakinləri ilə görüşüb.

Prezidentin sentyabrın 19-20-də Qarabağa növbəti səfəri də bu baxımdan yaddaqalan olub. Belə ki, Ağdam rayonunun Eyvazxanbəyli kəndinin təməlini qoyub, Kəngərli kəndində və Ağdam Sənaye Parkında görülən işlərlə tanış olub, yeni zavodların açılış mərasimlərində iştirak edib. Bu parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin məşğulluğunun artırılmasıdır. Sentyabrın 20-də - Dövlət Suverenliyi Günündə Prezident İlham Əliyev Xankəndi şəhərində Qarabağ Universitetinin və bu ali məktəbin tələbə yataqxanasının təmirdən sonra açılış mərasimində iştirak edib, universitetin müəllim və tələbə heyəti ilə görüşüb. Oktyabrın 3-də Cəbrayıl rayonuna səfər edən Prezident İlham Əliyev Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olub, Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında iştirak edib. Dövlətimizin başçısı, həmçinin Cəbrayıl şəhərində "Azərsun Holdinq" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin, rayonda "Hicaz quşçuluq" müəssisəsinin damazlıq yumurta istehsalı fabrikinin, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməllərini qoyub. Səfər çərçivəsində Zəngilan rayonunda da olan Prezident İlham Əliyev Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin, "Sarıqışlaq" Su Elektrik Stansiyasının açılışlarında iştirak edib, Zəngilan şəhərində beşinci və altıncı yaşayış komplekslərinin təməllərini qoyub, 104 mənzilli yaşayış və istirahət komplekslərində aparılan tikinti işlərinin gedişi ilə tanış olub. 4 Oktyabr - Cəbrayıl Şəhəri Günündə Prezident İlham Əliyev rayon mərkəzində inşa olunmuş yaşayış kompleksinin açılışında iştirak edib, yeni evlərə köçən sakinlərə mənzillərin açarlarını təqdim edib. Qeyd edək ki, ümumi sahəsi 7,9 hektar olan bu kompleksdə tikilmiş beşmərtəbəli və dördmərtəbəli 33 yaşayış binasında 712 mənzil var. Hazırda Qarabağ və Şərqi Zəngəzurda ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgələrdə reallaşdırılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə 30 minə yaxın insan yaşayır.

Şuşada keçirilən daha bir beynəlxalq tədbir - 2-ci Qlobal Media Forumu xüsusi qeyd olunmalıdır. "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusuna həsr olunan Forumda iştirak edən Prezident İlham Əliyev sualları cavablandırıb. 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyinin, 3 beynəlxalq təşkilatın və 82 media qurumunun nümayəndələrinin qatıldığı Forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayıb. Erməni faşizmi tərəfindən dağıdılan, yerlə-yeksan edilən bütün şəhər və kəndlərdə tikinti, bərpa-quruculuq layihələri Prezident cənab İlham Əliyevin birbaşa nəzarəti və dövlət başçımızın təsdiqlədiyi "Azərbaycan 2030: sosial iqtisadi inkişafa dair Milli Prioritetlər", "Strateji Fəaliyyət Planı" və "2022-2026-cı illər üçün Dövlət Proqramı" kimi strateji sənədlər əsasında icra olunur. Yeri gəlmişkən, həmin sənədlər yenidənqurma və inkişaf prosesinin 4 əsas mərhələsini əhatə edir. Onlardan birincisi, ümumi və Baş planların layihələndirilməsi, ikincisi, minatəmizləmə və baza infrastrukturunun yaradılması, üçüncüsü, sosial, ictimai və iqtisadi infrastrukturun tammiqyaslı şəkildə yenidən qurulması və inkişafı, dördüncüsü isə keçmiş məcburi köçkünlərin Böyük Qayıdışıdır.

Sirr deyil ki, Azərbaycanın siyasi, iqtisadi və hərbi imkanları daha da genişlənir, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmlənir. Beynəlxalq təhlilçilərin və siyasi ekspertlərin fikrincə, münaqişənin həlli regionun təhlükəsizliyi və kommersiya cəlbediciliyi baxımından böyük strateji əhəmiyyətə malikdir. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Bir sözlə, heç bir bölgə heç bir sahədə ölkənin ümumi inkişafından kənarda qalmır. Əməldə də, ruhda da, quruculuqda da köklü dəyişiklik baş verir.

**Salman ALIOĞLU,**
**"Respublika".**